Prezidentin demarş fəlsəfəsi

Yaxud böyüklüyün Azərbaycan təntənəsinə mükəmməl izah

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Azərbaycanın daxili və xarici siyasəti, regiondakı mövqeyi, dünyada baş verən proseslərin ölkəmizə təsiri və digər istiqamətlərlə bağlı çox vacib məqamlardan söz açdı. Dövlətimizin başçısının hər bir fikri dəyərlidir, hər sözünün arxasında fundamental baxışlar dayanır.

Ayrıca onu da bildirək ki, müsahibəni Azərbaycan dövlətinin 2022-ci ildə gördüyü işlərə dair hesabatı kimi qiymətləndirmək üçün kifayət qədər dolğun əsaslar var. Ancaq Prezidentin bildirdikləri yalnız bir ilə sığan məsələlər deyil. Xüsusən, Qarabağ münaqişəsi və ölkəmizlə Ermənistan arasındakı nizamlama prosesinə dair vurğuladığı məqamları nəzərdə tuturuq. Deməli, cənab İlham Əliyev müsahibəsində, eyni zamanda, 44 günlük müharibədən sonrakı müddətin hesabatını da açıqlayır.

***

İlk təsəvvür budur ki, ötən iki il çətin keçib. Əslində, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat imzalandıqdan sonra qarşıda gərgin psixoloji mərhələnin dayandığına şübhə yox idi. Bunun ayrı-ayrı elementlərinə şahidik. Ancaq dövlətimizin başçısı, müsahibəsində, mərhələni yenidən dəyərləndirmək, ona tarixi obraz qazandırmaq üçün, bir növ, fürsət yaratdı, şans verdi. Eyni zamanda, Vətən müharibəsindən indiyədək olan zaman kəsiyində Azərbaycanın diplomatiya meydanındakı haqq savaşının tarixini kifayət qədər incə cizgilərlə yazdı.

Biz bir tarixi mərhələnin müqəddəs Zəfərimizə aparan qürur və fəxarət səhnələrini görmüşdük. Psixoloji müharibədə isə başlıca hədəf hərb meydanında qazanılmış Qələbəni diplomatik müstəvidə də təsdiqləmək idi. Prezident İlham Əliyevin bildirdiyi kimi, "İkinci Qarabağ müharibəsindən sonra bizim əsas vəzifəmiz şanlı hərbi Qələbəmizi siyasi müstəvidə də təsdiqləmək idi. Biz dərhal işə başladıq. Çünki yaxşı başa düşürdük ki, əgər biz siyasi sahədə bu Qələbəni təsdiqləməsək, bu Qələbəni dünya ictimaiyyətinə qəbul etdirməsək, müəyyən problemlərlə üzləşə bilərik. Dərhal fəal işə başladıq və hesab edirəm ki, bu gün – artıq müharibədən iki il keçəndən sonra tam əminliklə demək olar ki, müharibənin nəticələri dünya tərəfindən qəbul edilib. Azərbaycanın haqlı olması bir daha təsdiqlənib və müharibənin sonunda yaranmış vəziyyəti biz daha da möhkəmləndirməliyik, yəni, öz mövqelərimizi daha da gücləndirməliyik. Son iki il ərzində həm beynəlxalq əlaqələr müstəvisində, həm ölkə daxilində biz istədiyimizə nail ola bilmişik".

Bəli, müharibənin nəticələri artıq dünya birliyi tərəfindən böyük ölçüdə qəbul edilib. Əslində, Azərbaycan və Ermənistan arasındakı nizamlama prosesinin ayrı-ayrı detallarından bunu əyani şəkildə görmək mümkündür. Sağlam məntiq onu deməyə əsas verir ki, beynəlxalq aləmin diqqət mərkəzində dayanan Cənubi Qafqaz siyasi akvatoriyasındakı proseslər möhkəm və dayanıqlı sülhün qərarlaşmasını diktəyə çevirir. Burada başlıca məqam regonda uzun müddətdir mövcud olmayan sülh mühitinin formalaşması barədə nikbinliyin yaranması məntiqinə dayanır. Yəni, əldə edilməsi ziddiyyətli situasiyalar doğursa da, sülh və sabitlik başlıca şərtdir.

Mövcud reallığı doğuran Azərbaycandır. Ölkəmiz istər 44 günlük müharibəyə qədərki fəaliyyəti, istərsə də ondan sonrakı əzmkarlığı ilə məhz sülh üçün mübarizə aparıb. Elə nikbinlik də həmin mübarizənin, gərgin zəhmətin nəticəsidir. Əminliklə deyə bilərik ki, dövlətimizin göstərdiyi əzmkarlıq, bütövlükdə, Cənubi Qafqazın gələcəyi naminədir. Bu, elə bir gələcəkdir ki, orada danışan sağlam əməkdaşlıq, inkişaf, tərəqqi olacaqdır, silahlar yox.

Bu, həm də dünyanın bölgəni iqtisadi cəhətdən görmək istədiyi plasdarmın formalaşmasına xidmətdir. Hərçənd, onu da bilirik ki, vaxtilə, xəyallarda qurulmuş Cənubi Qafqaz benilüksüna kosmopolit düşüncələr hakim kəsilmişdi və bu fonda Qarabağın Azərbaycana məxsusluğu kimi ciddi millilik amili nəzərə alınmamışdı. Yəni, plan kifayət qədər yarımçıq idi. Ölkəmiz özünün hakim aktorluq mövqeyi ilə bu planın reallaşması üçün zəmin formalaşdırıb.

***

Ancaq bölgədə tərəqqini deyil, silahları dindirmək istəyənlər qalmaqdadır. Prezident İlham Əliyev müsahibəsində, məhz, bu məqama toxundu. Yalnız toxunmadı, həmçinin, belə istəklərin Azərbaycanın iradəsi qarşısında zəifliyini arqumentləşdirilmiş formada əsaslandırdı. "Onu da bildirməliyəm ki, Ermənistana istənilən silah verilərsə, onlara kömək etməyəcək və mən Ermənistan tərəfinə bir neçə dəfə bunu demişəm. Demişəm ki, buna əbəs yerə vəsait xərcləməyin. Çünki birincisi, bu sizə kömək etməyəcək, ikincisi ölkənizdə olan revanşist qüvvələrdə hansısa bir illüziya yarada bilər. İllüziya yarada bilər ki, siz revanş edə bilərsiniz. Edə bilməyəcəksiniz! Biz əgər görsək ki, bizim üçün hər hansı bir ciddi təhlükə varsa, bu təhlükəni dərhal dəf edəcəyik. Baxmayaraq ki, bu təhlükə harada yaranıb, bizim ərazimizdə, yaxud da ki, hüdudlarımızın kənarında. Bu, bizim legitim hüququmuzdur. Ona görə belə cəhdlər var və biz görürük, bilirik hansı ölkələr Ermənistana silah verməyə hazırlaşırlar. Əfsuslar olsun ki, onların arasında Hindistan da indi rol alıb. Biz bunu qeyri-dost addım kimi qiymətləndiririk. Çünki bu silahların, özü də hücum silahlarının bir hədəfi var, o da Azərbaycandır. Ona görə biz, əlbəttə ki, lazımi tədbirləri görürük və imkan verə bilmərik ki, Ermənistan bizim üçün təhlükə yaratsın, heç vaxt imkan verə bilmərik".

Əslində, Ermənistandakı revanşist və şovinist mahiyyət daşıyan baxışların mövcudluğu Cənubi Qafqazın yeni siyasi və iqtisadi düzəninə tam zidd təmayüldür. Sanki, obrazlı desək, irəliyə, inkişafa doğru yol almaq istəyən mütərəqqi meyili kimlərsə özlərinin cılız ambisiyalarına qurban verməyə çalışır. Bu, dünya birliyini də ciddi şəkildə düşündürməlidir. Bəlkə düşündürür də. Ancaq, görünür, beynəlxalq aləmin bəzi qüvvələrində formalaşacaq yeni düzən üçün erməni amilini xüsusi çəkiyə mindirmək cəhdləri qalmaqdadır. Bu cəhdlərin nəticəsidir ki, haqqında söz açdığım sülh gündəliyinin qarşısında maneələr görürük. Bu meyillərin mövcudluğundandır ki, Ermənistan düz yola gəlmir. Ancaq Azərbaycan Prezidentinin vurğuladığı kimi, hərbi və siyasi uğursuzluğa düçar olmuş İrəvan sülh müqaviləsinin qaçılmazlığını anlayacaq.

Əlbəttə, siyasətin sərt tərəfləri, bəlli etiket qaydaları, nizamı var. Müsahibəsində bu barədə söz açan dövlətimizin başçısı Nikol Paşinyan başda olmaqla, Ermənistan rəhbərliyinin, siyasi dairələrinin ötən iki il müddətində, bir qayda olaraq, beynəlxalq aləmə Azərbaycandan şikayət ritorikasına üstünlük verdiklərini, ölkəmiz tərəfindən azacıq sərt davranışlar gördükdə, ayrı-ayrı dövlətlərə yalvarış məntiqinə kökləndiklərini bildirib. Təbiidir ki, bütün bunlar 44 günlük müharibənin doğurduğu reallıqlarla barışmaq niyyəti, anlayışlı davranış sayıla bilməz.

"Onlar bunu nə qədər tez anlasalar və nə qədər tez özlərində güc tapıb, iradə tapıb buna razılıq versələr, o qədər də bölgə üçün yaxşı olacaq", – deyən Prezident siyasətin haqqında söz açdığımız sərt tərəflərinin bağışlamayan təbiətinə də diqqət çəkməkdədir. Bu mənada, dövlətimizin başçısının söylədikləri, Ermənistan üçün mesaj olmalıdır. İrəvan siyasətin, məhz, həmin sərt sifətinin varlığını nəzərə alaraq düşünməlidir ki, Azərbaycan xəbərdarlıqlarla kifayətlənməyəcək. Necə ki, 44 günlük müharibəyə qədərki xəbərdarlıqları ilə kifayətlənməyib hərəkətə keçdi, yekunda İkinci Qarabağ müharibəsi baş verdi.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti müsahibəsində, ölkəmizin üçüncü müharibəni başlamaq fikrində olmadığını bəyan etdi. Bu bildirişin konkret ünvanı var. Məlumdur ki, Ermənistan və havadarları dünyaya Azərbaycanın yeni müharibəyə hazırlıq gördüyünü car çəkirlər. Belə təbliğatlar ölkəmizi daimi təzyiq altında saxlamağa, məkrli oyunları rahat davam etdirmək üçün təminat qazanmağa hesablanıb.

Yəni, istəkləri budur ki, sülh prosesini pozub destruktiv yol tutsunlar, eyni zamanda, silahlanıb güc toplasınlar. Azərbaycan isə belə demək mümkünsə, dünyaya yansıdılan müharibəpərəst, dağıdıcı obrazını aradan qaldırmaq yolunda çalışsın, onların mənfur əməllərinə qarşı cavab tədbirləri görməkdən məhrum duruma düşsün. Deməli, dövlətimizin başçısı ölkəmizə qarşı beynəlxalq miqyasda qarayaxma kampaniyasının aparıldığını, heç də əbəs yerə vurğulamır: "Bizi bu işdə günahlandıranlar, sadəcə olaraq, ya erməni təbliğatının qurbanları olublar, ya da ki, bizə qarşı yenə də uydurma və böhtan kampaniyası aparmaq istəyirlər. Onu da deməliyəm ki, indi bəzi Qərb mətbuatında bizə qarşı yeni dalğa, çirkin böhtan kampaniyası artıq geniş vüsət alır. Onun ilk təzahürlərini biz görürük, amma ehtimal edilir ki, növbəti çirkin addımlar da atılacaq. Amma bu, bizi dayandırmayacaq".

Bəli, ermənipərəst qüvvələrin və dünya ermənilyinin siyasət və media müstəvisində Azərbaycana qarşı həyata keçirdiyi çirkin kampaniya ölkəmizi tutduğu haqq yolundan əsla döndərə bilməz. Çünki dövlətimizin başçısı qətiyyətlidir və prinsipialdır, ölkəmizin diplomatiyası məqsədyönlü və ardıcıldır. Məhz, buna söykənərək 2023-cü ildən Azərbaycanla Ermənistan arasındakı münasibətlər baxımından əvvəldə haqqında söz açdığımız nikbinlik qənaətinə gəlmək mümkündür.

***

Ancaq bu nikbinlik, heç də, hazırda malik olduğumuz üstünlüyün verdiyi arxayınlıq deyil. Bu nikbinlik gücümüzü, hərbi potensialımızı durmadan artırmaq əzmimizə, mövcud istiqamətdə reallaşdırılmış kompleks tədbirlərə əsaslanır. Dövlətimizin başçısı müsahibəsində müharibədən sonrakı iki il müddətində ordu quruculuğu ilə bağlı görülmüş işləri məhz buna görə vurğulayır.

Bu gün Azərbaycanın hərb sistemi ən müasir silah-sursatla təmin olunmuş, mükəmməl təchizata malik oturuşmuş strukturdur. Qalib ölkə olmanın verdiyi ruh yüksəkliyi silahlı qüvvələrimizdəki döyüş hazırlığının təkmilləşməsi gerçəkliyini doğurub. Ölkəmizdə, sözün əsl mənasında, peşəkar ordu quruculuğu gedir. Elə bir ordu ki, qarşısına qoyduğu bütün mürəkkəb vəzifələri çətinlik çəkmədən, qısa müddətdə yerinə yetirmək qabiliyyətindədir. Prezident mövcud amillə hesablaşmayanlar üçün acınacaqlı aqibət müəyyənləşdirir: "Onu da bildirməliyəm ki, Sərhəd Xidmətinin xüsusi təyinatlılarının sayını artırmışıq, Daxili Qoşunların xüsusi təyinatlıları, Dövlət Təhlükəsizlik Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin xüsusi təyinatlıları, dəstələri, qrupları yaradılmışdır. Dəniz piyadalarının sayını bir neçə dəfə artırmışıq. Naxçıvan Əlahiddə Ordunun xüsusi təyinatlılarının sayını artırmışıq. Yəni, onun sayını mən indi deyə bilmərəm, çünki hesab edirəm ki, bu, düzgün olmaz. Bununla paralel olaraq, onların sayı hələ artır. Biz hələ qarşıya qoyduğumuz hədəfə çatmamışıq. Biz artıq elə bir qüvvə yaratmışıq və yaradacağıq ki, yəni, bununla hesablaşmamaq özünəqəsd kimi sayılmalıdır".

Cənab İlham Əliyev ötənilki çıxışlarının birində hərbçilərimizin Bala Göyçənin sahillərində olduğunu, onların Göyçə gölünü binoklsuz gördüklərini bildirərkən, mənəvi anlam daşıyan mesaj verməklə yanaşı, silahlı birləşmələrimizin artan qüdrətini göstərmişdi. Dövlətimizin başçısı indi də buna söykənərək, ümid edir ki, 2023-cü il İkinci Qarabağ müharibəsinin real sonu olacaq və Ermənistanla əvvəlki illərdə baş vermiş silahlı insidentlər təkrarlanmayacaqdır. Ölkəmizin üçüncü müharibəni başlamaq niyyətinin olmadığını vurğulayan Prezident aşağıdakı fikirləri söyləməyi də lazım bilir. Nəzərə alaq ki, onun söylədikləri Ermənistanı və havadarlarını qəflət yuxusundan ayıltmaq anlamı daşıyır: "Mən yenə də deyirəm, əgər görsək ki, bizə qarşı hər hansı bir təhlükə varsa və Ermənistan öz havadarları ilə bizə qarşı hansısa təxribat planlaşdırırsa, biz dərhal əlimizdə olan bütün imkanlarla bu təhlükəni aradan götürəcəyik və bəri başdan onları və onların arxasında dayananları da xəbərdar edirik".

Ümumən, Azərbaycan Prezidentinin Ermənistanla ziddiyyətli duruma diqqət çəkən fikirləri ölkəmizə qarşı beynəlxalq miqyaslı təhdidlərə demarş xarakteri daşımaqdadır. Dövlətimizin başçısı, kifayət qədər, açıq mətnlə bu təhdidlərə meydan oxumaq əzmini nümayiş etdirməkdədir. Belə nəticəyə gəlmək mümkündür ki, 44 günlük müharibədən sonrakı psixoloji savaşın başlıca elementi elə ölkəmizə ünvanlanmış təhdidlərdir.

Təsəvvür edin, mütərəqqi dəyərlərdən söz açan dünya təhdid ritorikası kimi yaramazlığı işə salır. Sanki, XXI əsr deyil, bəşəriyyətin quldarlıq və feodalizm dövrüdür. Elə bil, dünya beynəlxalq münasibətlər sisteminin qərarlaşdığı, diplomatik etikanın formalaşdığı zaman kəsiyindən uzaqdadır. Belə nəticəyə gəlmək mümkündür ki, xarici aləmin demokratiya adı ilə dünyaya car çəkdiyi prinsiplər keçmiş zamanların hərbə-zorba qəliblərinin əsirinə çevrilmiş durumdadır. Əlbəttə, həmin mərhələnin də özünəxas dəyərləri, kişilik və mərdlik göstəriciləri olub. Bu, hər kəsə yaxşı məlumdur. Ancaq Prezident İlham Əliyevin detallara əsaslanaraq səsləndirdiyi fikirlər beynəlxalq oyunçuların məqsədləri naminə necə primitiv metodlara əl atdıqlarının, hər hansı qayda tanımadıqlarının təsdiqidir. Belə məlum olur ki, Azərbaycanla Ermənistan arasındakı münasibətlər kontekstində irəli sürülmüş yaramazlıqlar siyasi müzakirələrin müəyyən istiqamətinin leytmotivini təşkil edib.

***

Amma təəccüblənməməliyik. Çünki siyasətini riyakarlıq üzərində qurmuş Ermənistanı başqa hansısa sivil yollarla müdafiə etmək mümkün deyil. Bu mənada Azərbaycan Prezidentinin Ermənistan–Fransa simbiozuna qiymət verməsində özünəməxsusluq var: "Bir məqamı da qeyd etmək istəyirəm. Ermənistanın ən yaxın müttəfiqi, eyni zamanda, ATƏT-in missiyasını da göndərmək fikrində idi, biz isə buna etiraz etdik. Çünki ATƏT-də belə məsələlər konsensus əsasında qəbul edilir, həll olunur. Biz əlbəttə, dedik ki, biz konsensus verməyəcəyik. Onda orada qaydalarda bir boşluq taparaq ATƏT-in bir heyətini də konsensussuz oraya göndərmişdilər. Yenə də manipulyasiya, yenə də saxtakarlıq. Bu saxtakarlıq üzə çıxandan və biz etirazımızı bildirəndən sonra Ermənistanın ən sevimli müttəfiqi bunu ATƏT-in fəaliyyətdə olan həmsədrinin – Polşanın üstünə yıxmağa çalışırdı ki, bizim xəbərimiz yoxdur, bunu Polşa edib. Yəni, bu detalları bir az açmaqla, sadəcə olaraq, mən riyakarlığın dərəcəsini sizin və ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm ki, biz öz haqqımızı tələb etmək üçün görün, kimlərlə və nələrlə üzləşməli oluruq".

Prezident İlham Əliyevin Fransa–Ermənistan "bacılığının" məhsulu kimi diqqətə çatdırdığı fikirlər dünya ictimaiyyətini ciddi şəkildə düşündürməlidir. Beynəlxalq aləm Parisin addımlarının sarsaq mahiyyətini yaxşı anlamalıdır. Çünki bu sayaq məsələlər dünya siyasəti adına utancverici mənzərə formalaşdırır, bəşəri inam və etimada zərbə vurur, beynəlxalq hüququn norma və prinsiplərini aşağılayır. Hələ Fransanın öz nüfuzuna vurduğu zərbəni demirik.

Bəli, Prezident Emmanuel Makron Fransanın reputasiyasına xələl gətirməkdədir. İndi tam məlum olur ki, o, nəyə görə ölkə vətəndaşları tərəfindən şillə-şapalağa "qonaq edilir". Adam, özünü döydürməkdən başqa yol qoymur. Bu mənada dövlətimizin başçısının Azərbaycanın Makrondan sonrakı Fransa hökuməti ilə konstruktiv əməkdaşlığına ümid bəsləməsi tam anlaşılandır. Axı, cənab İlham Əliyev belə davranışları görüb mübarizə aparır. Səbr isə bir yerə qədərdir.

Azərbaycan liderinin mübarizəsinin ölkəmizin əleyhdarlarını xəbərdar etmək üslubunu diqqətə çatdırdıq. Təbii, demarş da olmalıdır ki, bunu dövlətimizin başçısı böyük ustalıqla edir. Söhbət Prezidentin Ermənistanın sülh gündəliyindən uzaqlaşmasına münasibətindən gedir: "İstəmirlər – heç lazım da deyil. Delimitasiyanı istəmirlər – heç lazım da deyil. Deməli, sərhəd bizim lazım bildiyimiz yerdən keçəcək. Lakin mən artıq belə terminlərdən istifadə etməyə məcburam. Sərhəd delimitasiya edilməyib, bəs kim deyir ki, sərhəd buradan deyil, oradan keçir. Mən hesab edirəm ki, buradan keçir. Mənim bunu demək üçün əsaslarım var – tarixi, kartoqrafik əsaslar. Buna görə bu məsələ bizdən çox onları maraqlandırmalıdır. Biz uzun müddət belə yaşaya bilərik, sülh müqaviləsi olmasa heç lazım da deyil. Amma sonra nə olacaq? Sonrasına baxarıq. Buna görə də düşünürəm ki, onlar mənim mesajlarımı eşidəcək və düzgün nəticə çıxaracaqlar. Bir daha deyirəm, mən indiki halda təzyiq göstərən tərəf kimi görünmək istəmirəm və heç bir halda, heç bir şəraitdə hətta hörmətə layiq olmayana da hər hansı hörmətsizlik göstərməmişəm. Sadəcə, bir daha nəzərə çatdırmalıyam. Ona görə ki, mənim fikrimcə, bu il sonuncu şans olacaq. Ona görə ki, sonra 2024-cü il gəlir, sonra 2025-ci ildə Rusiyanın sülhməramlı missiyası başa çatır. Onlar burunlarının ucundan bir qədər irəli barədə düşünməlidirlər".

***

Prezidentin diqqətə çatdırdığımız bu fikirləri Ermənistan üçün, həm də, düşünmək fürsətidir. Əslində, dövlətimizin başçısı gündəmə gətirdiyi bir çox digər məsələlərdə də İrəvanın düşünmək şansını tanımaqdadır. Axı, məlumdur ki, nə qədər anti-Rusiya mövqe tutsalar da, Ermənistanın hakim dairələri Qarabağdakı Rusiya sülhməramlılarına güvənir, Moskvanın erməni sevgisinin onları tərk etməyəcəyinə inanır, Kremlin ermənipərəst çevrələrinin hay-küyünə ümid bəsləyirlər.

Rusiya Ermənistanda Qərbpərəst Paşinyanın hakimiyyətə gətirilməsi ilə itirdiyi mövqelərini geri qaytarmaq üçün dəridən-qabıqdan çıxır. Ona görə İrəvan aşkar şıltaqlıq yolu tutur. Necə deyərlər, siyasətin sərt zopası ilə çiling-ağac oyunu oynayır. Erməni siyasilər olduqca təhlükəli sularda üzdüklərinin fərqində belə deyillər. Hər cür həyasızlığı gerçəkləşdirirlər. 2022-ci il məhz bu həyasızlıq elementlərinin nümayişi ilə də yadda qaldı.

Bəli, İrəvan özünün yolverilməz xarici siyasətində Qarabağdakı Rusiya sülhməramlıları faktoruna güvənir. Elə hesab edir ki, istədiyi kimi davranacaq, Kreml Azərbaycanın Ermənistanı əzməsinə imkan verməyəcək. Ancaq cənab İlham Əliyev müsahibəsində Paşinyan administrasiyasına, ümumən, ölkənin siyasi istəblişmentinə bu sayaq yarıtmaz təsəvvürlərə bel bağlamamaq çağırışını edir. Əlbəttə, ölkəmizin özünə arxayın obrazını canlandırmaqla.

Arxayınlıq isə gücdən, qüvvədən qaynaqlanmaqla yanaşı, dünyadakı prosesləri düzgün qiymətləndirmək bacarığından, uzaqgörənlikdən irəli gəlir. Bu mənada dövlətimizin başçısının Rusiya-Ukrayna müharibəsinin başlanması ilə formalaşmış və hələ də davam etməkdə olan siyasi mərhələdən söz açması təsadüfi sayılmamalıdır. Prezident dünyanın silahlanmağa doğru getdiyini vurğulayarkən, Azərbaycanın prosesə 15 il öncə başladığını önə çəkir. O bildirir ki, Avropanın əvvəllər ordu quruculuğuna diqqət yetirməyən ölkələri də hazırda ordularını yaradırlar. Vahid Avropa ordusu haqqında danışıqlar başlayıb.

Rusiya-Ukrayna müharibəsinin başlanması ilə birincinin silah istehsalının daxili bazara kökləndiyini diqqətə çatdıran cənab İlham Əliyev Azərbaycanın mövcud istiqamətdə Türkiyənin və İsrailin, habelə, digər ölkələrin şirkətləri ilə yeni kontraktlar bağladığını, ən əsası isə yerli istehsalı genişləndirmək niyyətli layihə və təşəbbüslər reallaşdırdığını diqqətə çatdırır. Prezident Azərbaycanın hərb sanayesində yeni dövrün başlandığını vurğulayır. Bu deyimdən ölkəmizə qarşı yolverilməz hərəkətləri sıralayan qüvvələrə, o cümlədən, Ermənistan və havadarlarına növbəti demarş payı düşür: "Biz Ermənistanla məsələni həll etmişik. Əminəm ki, üçüncü müharibə olmayacaq. Amma təhdidlər aradan qalxmayıb, müharibədən sonra yeni təhdidlərlə üzləşmişik. Bu təhdidlərə sinə gərmək asan məsələ deyil – həm iradə olmalıdır, həm də ki, özündə əminlik olmalıdır. Biz heç vaxt avantüraya getməmişik və getməyəcəyik. Əgər bu təxribatlara qarşı biz, necə deyərlər, çox sarsıdıcı şapalaq vurmuşuqsa, deməli bu, sadəcə olaraq, təbliğat deyil, özümüzdə güc hiss edirik. Hər kəs bunu bilməlidir ki, bizimlə heç kim zarafat etməsin".

***

Bəli, 44 günlük müharibədə Azərbaycan dünya emənilyi kimi bölgəyə kök salmış mənfur xisləti sıradan çıxarmışdısa, talan edilmiş müqəddəs yurd yerlərini azadlığına qovuşdurmuşdusa, ölkəmiz ötən iki il müddətində həmin ərazilərin abadlığı naminə qurub-yaratmaqla məşğuldur. Cənab İlham Əliyev bu baxımdan həyata keçirilmiş böyük işləri sadaladı, gələcəkdə görüləcək tədbirlərin anonsunu verdi.

Onu da bildirməliyik ki, Azərbaycan dövləti işğaldan azad edilmiş bölgələrimizə Cənubi Qafqaz kontekstində nəhəng obraz qazandırmaq əzmindədir. Dövlətimizin başçısı müsahibəsində bildirdi ki, Orta Asiyadan gedən yüklər üçün yeni yollar olmalıdır. Xəzər yolu vaxt baxımından cəlbedicidir. Eyni zamanda, ölkəmiz müştərək tarif siyasətini həyata keçirməklə, bu yolu iqtisadi cəhətdən daha cəlbedici etməyi düşünür. Prezident İlham Əliyevin bildirdiyinə görə, "təkcə Orta Asiya ölkələrinin yükgöndərmə potensialını və oraya Avropa istiqamətindən gedən yükləri nəzərə alsaq, görərik ki, hətta biz bütün bu layihələri icra etsək və genişləndirsək, yenə də çatmayacaq".

Deməli, iqtisadi səmərəsi yüksək olan variant olmalıdır ki, bu yanaşmanın adı isə Zəngəzur dəhlizidir. O dəhliz ki, azadlığına qovuşmuş yurd yerlərimiz üçün tamamilə yeni sima, haqqında söz açdığımız nəhəng obraz vəd edir. Və o dəhliz ki, müharibədən sonrakı illərin prioritet müzakirə mövzusuna çevrilməklə, Azərbaycan və Ermənistan arasındakı münasibətlərin də başlıca gündəliyini təşkil edib.

Məlumdur ki, İrəvan mövcud istiqamətdə də müqavimət göstərməkdə, üçtərəfli bəyanata əsasən, üzərinə götürdüyü öhdəliyi yerinə yetirməməkdədir. Söhbət digər ərazilərimizi Naxçıvanla birləşdirəcək yoldan gedir. Ölkəmiz üçün bu yol təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, həm də strateji əhəmiyyət daşıyan məsələdir. "Tam əminik ki, bu layihənin reallaşması bizim təbii hüququmuzdur. Ondan əlavə, bu layihənin reallaşması, eyni zamanda, 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatında da öz əksini tapıb. Düzdür, orada "Zəngəzur dəhlizi" sözü yoxdur. Çünki "Zəngəzur dəhlizi" terminini mən ondan sonra, necə deyərlər, geosiyasi leksikona daxil etdim. Ancaq orada açıq-aydın göstərilir ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır və Ermənistan bunu təmin etməlidir. İndi Ermənistan bundan boyun qaçırmaq istəyir. Faktiki olaraq, üzərinə götürdüyü öhdəlikləri iki ildən çoxdur ki, yerinə yetirmir. Ancaq bu, bizi dayandırmayacaq. Yəni, bizim üçün bu, strateji layihədir və təkcə bizim üçün yox, bir neçə qonşu ölkə üçün və böyük coğrafiya üçün".

***

Sonda onu da vurğulayaq ki, Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində Cənubi Qafqazın perspektivlərinə, Azərbaycan və Ermənistan arasındakı münasibətlərə dair səsləndirdiyi fikirlər, eləcə də, həmin fikirlərdəki qalib dövlət obrazını canlandıran reallıqlar qarşımızda yeni hədəfin müəyyənləşməsindən də xəbər verməkdədir. Dövlətimizin başçısı həmin hədəfə xalqın birlik amalı kimi yanaşır. Söhbət birliyimizin Qərbi Azərbaycan təntənəsindən gedir. O təntənə ki, həm qan yaddaşımızın acısıdır, həm də soykökümüzün, varlığımızın dilləntisi.

"Necə ki, vaxtilə Qarabağ mövzusu bütün Azərbaycan xalqını birləşdirdi və biz istəyimizə nail olduq, eyni yanaşmanı burada da görməliyik", – deyən cənab İlham Əliyevin Qərbi Azərbaycan məsələsini Azərbaycanın yaxın gələcək üçün mühüm strategiyası olaraq vurğulaması həm siyasi, həm də böyük mənəvi mahiyyət daşımaqdadır. Ölkə rəhbərinin də bildirdiyi kimi, qarşıda mövcud istiqamətdəki fəaliyyətə böyük ehtiyac var. Əsas məqam budur ki, dövlətimiz Prezident İlham Əliyevin şəxsində bu ehtiyacı qarşılamaq naminə möhkəm və sarsılmaz iradəyə malikdir. 2023-cü ili bu baxış nikbinliyi ilə qarşılamaq isə olduqca xoşdur.

"Xalq qəzeti"nin Analitik qrupu